# GÖYÇAY: SOSİAL-MƏDƏNİ YÜKSƏLİŞ VƏ MODERNLƏŞMƏ NÜMUNƏSİ

**(əvvəli ötən saylarımızda)**

## *Dövlət Proqramı və görülən işlərin zəruriliyi*

**2016-cı ildə başlanan yeni iqtisadi islahatların nəticələri özünü ötən il daha geniş miqyasda göstərmişdir. Prezident İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüslər, qeyri-neft sektorunun inkişafını sürətləndirən islahatlar iqtisadiyyatda naliyyətlərin əldə olunmasına, makroiqtisadi sabitliyin möhkəmləndirilməsini və tarazlı iqtisadi inkişafı təmin etdi.**

2020-ci ilin fevral ayının 3-də "Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda bu barədə geniş bəhs edildi. Konfrans dördüncü dövlət proqramının birinci ilinin yekunları ilə bağlı olsa da əslində son 16 ilin sosial-iqtisadi inkişafının hesabatı verildi. Prezident İlham Əliyevin konfransda səsləndirdiyi rəqəmlər və faktlar tarixin ən güclü Azərbaycanının aydın mənzərəsini yaradır. Son 16 ildə ölkə iqtisadiyyatı 3,4 dəfə artıb ki, bu da dünyada rekord göstəricidir. O cümlədən sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə artıb, valyuta ehtiyatları 27 dəfə artaraq 52 milyard dollara çatıb. Dördüncü Dövlət Proqramının birinci ili də daxil olmaqla əldə olunan uğurlar, həyata keçirilən əzəmətli layihələr Azərbaycan Dövlətinin və xalqının çox qısa dövr ərzində nail olduğu misilsiz, möhtəşəm və tarixi naliyyətlər, milli yüksəliş salnaməsinin nümunələridir. Ölkə Prezidentinin apardığı uğurlu siyasət 2019-cu ildə




respublikamızda iqtisadiyyatın bütün sahələrində müsbət nəticələrin qazanılmasını təmin etdi. Dövlət başçısının qeyd etdiyi kimi Dövlət Proqramının birinci ili üçün nəzərdə tutulmuş məsələlər həll edilib. Azərbaycan İqtisadiyyatı 2,2%, qeyri-neft sektoru 3,5% artıb. Ötən il 98 min yeni iş yerinin yaradılması da qeyri-neft sektorunda baş verən artımın məntiqi nəticəsidir. Əldə olunan hər bir nəticə isə dördüncü Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsindən xəbər verir.

**Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında Göyçay rayonu üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi rayonumuzun da inkişafında ciddi dönüş yaratmışdır. Son 16 ildə rayon üzrə ümumi məhsul buraxılışı 8,2 dəfə, sənaye məhsulunun həcmi 11,5 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,3 dəfə, əsas kapitala yönəldilmiş investisiyalar 64,2 dəfə artmışdır. Birinci dövlət proqramı qəbul edildikdən sonra rayonda 3044 yerlik 16 məktəb binası istifadəyə verilmiş, 6044 şagird yerlik məktəb binası əsaslı təmir edilmiş və ya yenidən qurulmuş, 6 məktəbdə 736 şagird yerlik əlavə sinif otaqları inşa edilmişdir. Ölkə Prezidentinin Sərəncamlarına əsasən rayonun 52 min nəfər əhalisinin yaşadığı 32 yaşayış məntəqəsini birləşdirən ümumi uzunluğu 77,8 km olan kəndlərarası avtomobil yolları əsaslı yenidən qurulmuş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün Göyçay çayının məcrasında səviyyə qaldıran qurğu, Yuxarı Şirvan kanalı üzərində 3 mq.v gücündə su elektrik stansiyası inşa edilmişdir.**

Bir sıra infrastruktur obyektləri istifadəyə verilmiş, Göyçay şəhərinin su təchizatı və kanalizasiya sistemi yenidən qurulmuş, rayon mərkəzi də daxil olmaqla 50 yaşayış məntəqəsi qazlaşdırılmışdır.

Emal müəssisələrində əsaslı yenidənqurma işləri aparılmış, ən müasir avadanlıqlarla təmin olunaraq ixrac yönümlü məhsul istehsalına başlanılmışdır. Ötən illər ərzində Heydər Əliyev və Gənclər Mərkəzləri, Bayraq Muzeyi, Olimpiya İdman Kompleksi, Şahmat məktəbi, Musiqi məktəbi, YAP rayon təşkilatı üçün inzibati bina istifadəyə verilmiş, Mərkəzi rayon Xəstəxanası əsaslı təmir edilmiş, genişmiqyaslı abadlıq və quruculuq işləri görülmüşdür.

Hesabat dövründə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Göyçay rayonu üzrə nəzərdə tutulmuş tədbirlərin icrası istiqamətində əməli tədbirlər görülmüşdür.

Rayon ərazisində yol infrastrukturunun təkmilləşdirilməsi, yerli əhəmiyyətli kəndlərarası avtomobil yollarının yenidən qurulması və əsaslə təmirinin davam etdirilməsi istiqamətində əməli tədbirlər görülmüş, Azərbaycan Respublikası Prezidentinin "Göyçay rayonunun Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncamına uyğun olaraq ümumi uzunluğu 7,5 km olan yolda əsaslı təmir işləri başa çatdırılmışdır. Hazırda 4 yaşayış məntəqəsini birləşdirən, ümumi uzunluğu 12,3 km olan Hacalıkənd-Qaraman-Ləkçılpaq-Yalman yolunun tikintisi aparılır.

***Məktəb və məktəbəqədər təhsil müəssisələrinin tikintisi və əsaslı təmiri istiqamətində müəyyən tədbirlər həyata keçirilir. Dövlət Proqramına müvafiq olaraq Çaxırlı kəndində 640 yerlik tam orta məktəbində əsaslı təmiri işləri başa çatdırılmış, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qarabaqqal kəndində 40 yerlik uşaq bağçası, Müskürlü kəndində 40 yerlik uşaq bağçası, tibb məntəqəsi, kitabxana, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik və kənd bələdiyyəsi üçün otaqları əhatə edən inzibati binalar kompleksi istifadəyə verilmişdir.***



Ölkə Prezidentinin "Göyçay rayonu ərazisində Göyçay çayında selə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən ayrılmış vəsait hesabına Göyçay çayında baş suqəbuledici qurğunun təmir-bərpası və selə qarşı mühafizə tədbirləri başa çatdırılmaq üzrədir...

## *Əhalinin məşğulluğu diqqət mərkəzində*

İclasda daha sonra qeyd olunduğu kimi hesabat dövründə sosial müdafiəyə ehtiyacı olan vətəndaşların müəyyən edilməsi, əhalinin məşğulluğunun artırılması istiqamətində bir sıra işlər görülmüşdür. Məşğulluq imkanlarının genişlənməsi, əhalinin kənd təsərrüfatı işlərinə geniş cəlb olunaraq gəlir əldə etmək imkanlarının gücləndirilməsi, yardımların təyin olunmasının elektronlaşdırılması ilə əlaqədar sui istifadə hallarının tam aradan qaldırılması ünvanlı sosial yardım proqramlarına müraciətlərin sayının əsaslı surətdə azalmasına səbəb olmuşdur.

Hesabat dövründə əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması və ilk növbədə imkansız vətəndaşların işlə təmin olunması istiqamətində keçirilmiş tədbirlər nəticəsində 1330 yeni iş yeri açılmışdır.

Bütövlükdə birinci dövlət proqramı qəbul edilən 2004-cü ildən rayonda 16047 yeni iş yeri açılmışdır ki, bunun da 13493-ü və ya 84,1 %-i daimi iş yerləridir.

## *Təhsil, səhiyyə və mədəniyyət*

***2019-cu ildə rayonda fəaliyyət göstərən təhsil, səhiyyə, mədəniyyət və digər humanitar sahələrin kollektivləri öz fəaliyyətlərini gücləndirməklə işlərini günün tələbləri səviyyəsində qurmağa səy göstərmişlər.***

Hesabat dövründə rayon Təhsil Şöbəsinin nəzdində 56 ümumtəhsil məktəbi və 2 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərmişdir. Ümumtəhsil məktəblərinin 861 sinif komplektində 16695 nəfər şagird təhsilə cəlb edilmiş, onların təlimi ilə 2264 nəfər müəllim məşğul olmuşdur. Hesabat dövründə 1670 nəfər şagir I siniflərdə, 1439 nəfər şagird IX siniflərdə, 943 nəfər şagird isə XI siniflərdə təhsilə cəlb olunmuşlar. Həmçinin 50 ümumi təhsil məktəbinin 74 qrpunda 1381 nəfər 5 yaşlı uşaq məktəbəhazırlıq məşğələlərində iştirak edirlər.

***Ötən il rayon məktəbləri məzunlarından 617 nəfəri sənəd qəbulu prosesində iştirak etmiş, 332 nəfər ali məktəbə qəbul olmuş, 24 nəfər 600 baldan, 62 nəfər 500 baldan yuxarı nəticə göstərmişdir. Hesabat dövründə ali məktəbə daxil olan tələbələrlə təntənəli görüş keçirilmiş, görüşdə 2019-2020-ci dərs ilində ali məktəb tələbəsi adını qazanmış 332 nəfər məzun iştirak etmiş, 600 baldan yuxarı nəticə göstərən 24 tələbə mükafatlandırılmışdır.***

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin rayon turunda 61 təqdimat dinlənilmiş, şəhər 1 №-li tam orta məktəbin XI sinif şagirdi Quluzadə Qarakişi İlqar oğlu rayon turunun qalibi kimi respublika turunda müvəffəqiyyətlə iştirak etmişd və II yeri tutmuşdur. Hesabat dövründə rayon əhalisinə 1095 nəfər tibb işçisi xidmət göstərmişdir ki, onlardan 173 nəfəri həkim, 469 nəfər orta tibb işçisidir.

Ölkə başçısı cənab İlham Əliyevin tapşırığına əsasən 2019-cu il fevralın 11-dən mayın ayının 11-dək respublikamızın hər yerində olduğu kimi Göyçay rayonunda da əhalinin kütləvi tibbi müayinəsi həyata keçirilmişdir. Müayinənin müvəffəqiyyətlə həyata keçirilməsi üçün tibb müəssisələri lazımi hazırlıq vəziyyətinə gətirilmiş, xüsusi qrafik tərtib edilmiş, əhalinin işləməyən təbəqəsinin də bu tədbirə cəlb edilməsi, yerli qəzetdə lazımi izahat və maarifləndirmə işi aparılmışdır.

**Eyni zamanda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq əmri ilə 18 yaşa qədər uşaqların dispanserizasiyası da aparılır,dispanserizasiya ilin sonunadək davam edəcəkdir. Hesabat ilində rayonun tibb müəssisələrinin icbari tibbi siğortaya hazırlıq işləri başa çatdırılmış, Mərkəzi rayon Xəstəxanasında icbari tibbi siğortanın məlumat bazasının yaradılmasına, müraciət edən vətəndaşın onlayn qeydiyyatının aparılmasına, onun siğorta olunan olub olmamasının müəyyənləşdirilməsinə, xəstənin müraciət etdiyi şöbələr, ona xidmət göstərən həkimlər, təyin olunan müayinə və müalicə haqqında məlumatların sistemə daxil edilməsi üçün müvafiq imkan yaradılmışdır. 2020-ci ildən icbari tibbi siğortanın ölkə üzrə mərhələli şəkildə tətbiqinə başlanılmış, yanvar ayının 1-dən etibarən icbari tibbi siğorta xidmətləri zərfi çərçivəsində rayon əhalisinə tibbi xidmətlər göstərilir.**

2019-cu ildə əhaliyə göstərilən mədəni xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində xeyli işlər görülmüş Ağdaş Regional Mədəniyyət İdarəsinin tərəfindən bir sıra mədəni-maarif tədbirləri həyata keçirilmişdir. 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə bağlı may ayında "Əbədiyaşar ədiblər abidəsi" kompleksində respublikanın görkəmli sənət xadimlərinin iştirakı ilə İmadəddin Nəsiminin 650 illik yubleyinə həsr edilmiş "Cahana sığmayan şair" adlı ədəbi bədii kompozisiya keçirilmişdir.

Noyabr ayında Uşaq Musiqi məktəbində C.Məmmədquluzadənin və Üzeyir Hacıbəyovun yaradıcılıqlarına həsr olunmuş "Azərbaycan korifeyləri" adlı musiqili ədəbi-bədii proqram təşkil edilmiş, Əli Kərim parkındakı abidə kompleksində hər iki korifeyin büstü qoyulmuşdur.

## *"Açıq mikrofon" inam və etimadı gücləndirir*

Hesabat ilində Heydər Əliyev Mərkəzində rayon İcra Hakimiyyəti başçısı aparatının, Hüquq Mühafizə orqanlarının, rayonun idarə, müəssisə və təşkilat rəhbərlərinin, yerli icra nümayəndələrinin və bələdiyyələrinin, həmçinin rayon ictimaiyyətinin müxtəlif təbəqələrini təmsil edən nümayəndələrin iştirakı ilə 2 dəfə - iyul və dekabr aylarında "Açıq mikrafon" tədbiri keçirilmiş, tədbirdə son illər həm respublikamızda, həm də Göyçay rayonunda sosial-iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin həyat şəratinin yaxşılaşdırılması istiqamətində görülmüş tədbirlər barədə ətraflı məlumat verilmiş, vətəndaşları narahat edən bəzi məsələlərə aydınlıq gətirilmişdir. Tədbirlər zamanı vətəndaşlar tərəfindən 14 məsələ qaldırılmış, ötən müddət ərzində onlardan 11-nin icrası təmin olunmuş, 1 məsələ haqqında Nazirlər Kabinetinə müraciət olunmuş, 2 məsəlnin icrası isə nəzarətə götürülmüşdür.

## *Görüşlər, qəbullar...*

Hesabat dövründə ilin əvvəlində təsdiq edilmiş qrafikə uyğun olaraq inzibati ərazi dairələrində rayon icra hakimiyyəti başçısının səyyar qəbullarının keçirilməsi təmin edilmiş, il ərzində keçirilən 48 qəbul günündə 132 nəfərin müraciəti dinlənilmişdir. Qəbullarda qaldırılan bütün müraciətlərə həssaslıqla yanaşılmışdır. Müraciətlər nümayəndəliklər üzrə ümumiləşdirilmiş, görüləcək hər bir işin icraçısı və konkret müddəti göstərilməklə aparatın müvafiq şöbələri tərəfindən nəzarət təmin olunmuşdur. Həlli rayondan asılı olmayan bəzi problemlərlə bağlı Respublikanın müvafiq orqanları qarşısında məsələ qaldırılmışdır.

## *Qarşıda duran vəzifələr*

Göyçay rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə məruzə ilə çıxışına yekun vuraraq demişdir:

**- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə və "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışlarında qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi hər birimizdən yüksək intizam, şəxsi məsuliyyət və işgüzarlıq tələb edir. Mən ölkə Prezidentini möhkəm əmin etmək istəyirəm ki, göyçaylılar bundan sonra da rayon İcra Hakimiyyətinin rəhbərliyi ilə möhtərəm cənab Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməklə, bütün qüvvə və bacarıqlarını müstəqil Azərbaycanın tərəqqisi naminə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsinə sərf edəcəklər.**

**Məzahir ƏHMƏDZADƏ**